# YƏHYANIN BİRİNCİ MƏKTUBU

## GİRİŞ

*«Yəhyanın Birinci Məktubu»*nun yazılmasında iki məqsəd var: imanlıları Allahla və Onun Oğlu İsa Məsihlə sıx ünsiyyətdə yaşamağa çağırmaq; bu ünsiyyəti məhv edə bilən yanlış təlim yayanlara qarşı xəbərdarlıq.

Bu yanlış təlimdə bildirilirdi ki, şər cismani dünya ilə təmasdan yaranır və Allahın Oğlu İsa Məsih insan təbiətinə malik deyil. Bu müəllimlər öyrədirdi ki, insan xilas tapmaq üçün bu dünyanın qayğılarından tam azad olmalıdır. Onlar həm də məsihçi imanlısı üçün mənəviyyatın və yaxınını sevməyin mühüm olduğunu inkar edirdilər.

Yəhya bütün bunlara qarşı durub aydın öyrədir ki, İsa, həqiqətən, insan idi. O həm də bəyan edir ki, İsa Məsihə iman edib Allahı sevənlər bir-birini də sevməlidir.

**Kitabın məzmunu:**

1:1-4 Həyat Kəlamı
1:5–2:17 Nur və qaranlıq
2:18-29 Məsihin əleyhdarı
3:1-24 Allahın övladları
4:1-6 Ruhları tanımaq barəsində
4:7-21 Allah məhəbbətdir
5:1-21 Qalib gələn iman və əbədi həyat

*Həyat Kəlamı*

1 *Biz Həyat Kəlamını elan edirik; bu həmin
Kəlamdır ki, başlanğıcdan var idi və biz Onu eşitdik,
gözlərimizlə gördük, seyr etdik və əllərimizlə hiss
etdik. 2 *Həyat zahir oldu, biz də onu görüb
şahidlik edirik və Ata ilə birlikdə olub bizə za-
hir olan əbədi həyatı sizə elan edirik. 3 Biz sizə
gördüyümüzü və eşitdiyimizi elan edirik ki, sizin
də bizimlə şərikliyiniz olsun; bizim şərikliyimiz
də Ata və Onun Oğlu İsa Məsihlədir. 4 Biz bunları
yazırıq ki, sevincimiz* kamil olsun.

### *Nurda yaşayın*

5 Məsihdən eşitdiyimiz və sizə elan etdiyimiz
xəbər budur: Allah nurdur və Onda zərrə qədər
də qaranlıq yoxdur. 6 Əgər biz «Allahla şərikliyimiz
var» dediyimiz halda qaranlıqda gəziriksə, demək,
yalan danışırıq və həqiqətə əməl etmirik. 7 Amma
O, nurda olduğu kimi biz də nurda gəziriksə, onda
bir-birimizlə şərikliyimiz var və Onun Oğlu İsanın
qanı bizi hər günahdan təmizləyir. 8 Əgər günahsız
olduğumuzu iddia ediriksə, özümüzü aldadırıq və
daxilimizdə həqiqət yoxdur. 9 Amma günahlarımızı
etiraf ediriksə, Allah sadiq və ədalətli olduğu üçün
günahlarımızı bağışlayacaq və bizi hər haqsızlıqdan
təmizləyəcək. 10 Əgər günahkar olmadığımızı iddia
ediriksə, onda Onu yalançı yerinə qoyuruq və daxilimizdə Onun sözü olmur.

## 2

1 Övladlarım, bunları sizə yazıram ki, günah
etməyəsiniz. Əgər kimsə günah etsə belə, Atanın

* **1:1** Yəh. 1:1 * **1:2** Yəh. 1:14 * **1:4** Sevincimiz – bəzi əlyazmalarda sevinciniz.

hüzurunda Vəsatətçimiz var; O, saleh olan İsa
Məsihdir. 2 O bizim günahlarımıza görə – təkcə
bizim günahlarımıza görə deyil, bütün dünyanın
günahlarına görə kəffarə qurbanıdır.

3 Onu tanıdığımızı bundan bilirik ki, Onun
əmrlərinə riayət edirik. 4 Kim «Onu tanıyıram»
deyir, amma Onun əmrlərinə riayət etmirsə,
yalançıdır və onun daxilində həqiqət yoxdur.
5 Lakin kim Onun sözünə riayət edirsə, Allah
məhəbbəti onda, həqiqətən, kamilliyə çatıb.
Bundan bilirik ki, biz Allahdayıq. 6 Kim Onda
qaldığını deyirsə, İsa Məsihin həyat sürdüyü kimi
həyat sürməlidir.

7 *Sevimlilər, sizə yeni əmr yazmıram, əvvəldən
bəri malik olduğunuz qədim bir əmri yazıram;
qədim əmr isə eşitdiyiniz* sözdür. 8 Yenə də sizə yeni
bir əmr yazıram; bunun həqiqi olduğu Məsihdə və
sizdə görünür. Çünki qaranlıq keçir və həqiqi nur
artıq parlayır.

9 Kim nurda olduğunu deyir, amma qardaşına
nifrət edirsə, hələ də qaranlıqdadır. 10 Qardaşını
sevən nurda qalır və onda büdrəmə səbəbi yoxdur.
11 Amma qardaşına nifrət edən qaranlıqdadır. O,
qaranlıqda gəzir və hara getdiyini bilmir, çünki
qaranlıq onun gözlərini kor edib.

12 Ey övladlar, sizə yazıram, çünki Onun adı
naminə günahlarınız bağışlanıb.

13 Ey atalar, sizə yazıram, çünki başlanğıcdan bəri
Var Olanı tanıyırsınız.

---

* **2:7** Yəh. 13:34 * **2:7** Eşitdiyiniz – bəzi əlyazmalarda əvvəldən bəri eşitdiyiniz.

Ey gənclər, sizə yazıram, çünki şər olana qalib gəlmisiniz.
14 Ey uşaqlar, sizə yazdım, çünki Atanı tanıyırsınız.
Ey atalar, sizə yazdım, çünki başlanğıcdan bəri Var Olanı tanıyırsınız.
Ey gənclər, sizə yazdım, çünki güclüsünüz, Allahın kəlamı sizdə qalır, şər olana da qalib gəlmisiniz.
15 Dünyanı və dünyada olan şeyləri sevməyin.
Kim dünyanı sevirsə, onda Atadan olan məhəbbət
yoxdur. 16 Çünki dünyada olan hər şey – cismani
ehtiraslar, acgözlük və dünya malına görə təkəbbür
Atadan yox, dünyadan gəlir. 17 Dünya və on-
dakı ehtiraslar keçib-gedir, amma Allahın iradəsinə
əməl edən əbədi qalır.

### *Məsih əleyhdarı*

18 Ey uşaqlar, axır zamandır. Siz «Məsih
əleyhdarı»nın gələcəyini eşitmisiniz, indi də çoxlu
Məsih əleyhdarı meydana çıxıb. Bundan bilirik ki,
axır zamandır. 19 Onlar bizim aramızdan çıxdılar,
amma bizə məxsus deyildilər. Əgər bizə məxsus
olsaydılar, bizimlə qalardılar. Amma qalmadılar
ki, heç birinin bizə məxsus olmadığı aşkara çıxsın.
20 Lakin siz Müqəddəs Olandan bir məsh
almısınız və hamınız biliklisiniz.† 21 Mən sizə
həqiqəti bilmədiyiniz üçün deyil, onu bildiyiniz
üçün yazdım; siz bunu da bilirsiniz ki, heç bir
yalanın həqiqətlə əlaqəsi yoxdur. 22 Bəs yalançı
kimdir? İsanın Məsih olduğunu inkar edən şəxs!
O, Atanı və Oğulu inkar edən Məsih əleyhdarıdır.
23 Oğulu inkar edən hər kəs Ataya da malik deyil,

† **2:20** Hamınız biliklisiniz – bəzi əlyazmalarda hər şeyi bilirsiniz.

lakin Oğulu iqrar edən kəs Ataya da malikdir.
24 Sizin əvvəldən bəri eşitdiyiniz söz qoy sizdə
qalsın. Əgər əvvəldən bəri eşitdiyiniz söz sizdə
qalsa, siz də Oğul və Atada qalarsınız. 25 Onun bizə
verdiyi vəd budur: əbədi həyat!
26 Bunları sizi aldatmaq istəyənlər barəsində
yazıram. 27 Sizə gəlincə, Ondan aldığınız məsh
daxilinizdə qalır və kimsənin sizə təlim verməsinə
ehtiyacınız yoxdur. Əksinə, Onun bu məshi sizə
hər şey barədə təlim verir və bu, yalan deyil,
həqiqətdir. Ona görə də sizə öyrətdiyi kimi Onda
qalın.

### *Allahın övladları*

28 Beləliklə, ey övladlar, Onda qalın ki, O zahir
olanda cəsarətimiz olsun, Onun zühuru zamanı
önündə utanmayaq. 29 Əgər Onun saleh olduğunu
bilirsinizsə, həm də bilin ki, saleh iş görən hər kəs
Ondan doğulub.

# 3

1 *Görün Ata bizə necə məhəbbət göstərib ki, biz
Allahın övladları adlanırıq! Doğrudan da, beləyik!
Dünya Onu tanımadığına görə bizi də tanımır. 2 Ey
sevimlilər, indi biz Allahın övladlarıyıq, amma nə
olacağımız hələ üzə çıxmayıb. Lakin bilirik ki, Məsih
zühur edəndə biz Ona bənzəyəcəyik, çünki Onu
olduğu kimi görəcəyik. 3 Ona bu cür ümid bağlayan
hər kəs O pak olduğu kimi özünü pak edir.
4 Günah edən hər kəs Qanunu da pozar, çünki
günah Qanunu pozmaqdır. 5 *Siz bilirsiniz ki,
Məsih günahları aradan qaldırmaq üçün zühur etdi.

* **3:1** Yəh. 1:12 * **3:5** Yəh. 1:29

Onda günah yoxdur. 6 Onda qalan hər kəs günahını
davam etdirməz. Günahını davam etdirən hər kəs
nə Onu görüb, nə də Onu tanıyır.
7 Ey övladlar, heç kəs sizi aldatmasın; saleh iş
görən şəxs Məsihin saleh olduğu kimi salehdir.
8 Günahını davam etdirən şəxs iblisdəndir, çünki
iblis başlanğıcdan bəri günah edir. Allahın Oğlu
buna görə zühur etdi ki, iblisin əməllərini puça
çıxarsın. 9 Allahdan doğulan hər kəs günahını
davam etdirməz, çünki Allahın toxumu onda qalır.
O, günahını davam etdirə bilməz, çünki Allah-
dan doğulub. 10 Kimin Allahın övladı, kiminsə ib-
lisin övladı olması bundan aydın olur: saleh iş
görməyən, həmçinin qardaşını sevməyən hər kəs
Allahdan deyil.

### *Bir-birimizi sevək*

11 *Əvvəldən bəri eşitdiyiniz xəbər budur: bir-
birimizi sevək. 12 *Şərdən olub qardaşını öldürən
Qabil kimi olmayaq. O, qardaşını niyə öldürdü?
Ona görə ki öz əməlləri şər, qardaşının əməlləri
isə saleh idi. 13 Beləliklə, qardaşlar, dünya sizə
nifrət edirsə, heyrətlənməyin. 14 *Qardaşlarımızı
sevdiyimizə görə biz bilirik ki, ölümdən həyata
keçmişik. Sevməyənsə ölümdə qalır. 15 Qardaşına
nifrət edən hər kəs qatildir. Bildiyiniz kimi,
heç bir qatil özündə qalan əbədi həyata malik
deyil. 16 Məhəbbətin nə olduğunu bundan anladıq
ki, Məsih Öz canını bizim üçün fəda etdi. Biz
də öz canımızı qardaşlarımız üçün fəda etməliyik.
17 Əgər kimsə dünya malına sahib olarkən qardaşını

---

* **3:11** Yəh. 13:34 * **3:12** Yar. 4:8 * **3:14** Yəh. 5:24

ehtiyac içində görüb ona rəhmi gəlmirsə, Allah
məhəbbəti onda necə qala bilər?
18 Ey övladlar, sözdə və dildə deyil, əməldə
və həqiqətdə sevək. 19-20 Bununla həqiqətdən
olduğumuzu biləcəyik və ürəyimiz bizi məhkum
edirsə, ürəyimizi Allahın önündə sakitləşdirəcəyik.
Çünki Allah bizim ürəyimizdən üstündür və hər şeyi
bilir. 21 Ey sevimlilər, əgər ürəyimiz bizi məhkum
etmirsə, demək, Allahın hüzurunda cəsarətlə danışa
bilərik 22 və Ondan nə diləyiriksə, alırıq. Ona görə
ki Onun əmrlərinə riayət edirik və önündə Ona
məqbul olan işlər görürük. 23 *Onun əmri də
budur ki, biz Onun Oğlu İsa Məsihin adına iman
edək və Onun bizə əmr etdiyi kimi bir-birimizi
sevək. 24 Onun əmrlərinə riayət edən şəxs Allahda,
Allah da onda qalır. Onun bizdə qaldığını bu yolla,
bizə verdiyi Ruh vasitəsilə bilirik.

# 4

### *Ruhları sınayın*

1 Ey sevimlilər, hər ruha inanmayın; ruhların
Allahdan olub-olmadığını bilmək üçün onları
sınaqdan keçirin. Çünki dünyada çoxlu yalançı
peyğəmbər meydana çıxıb. 2 Allahın Ruhunu
bundan tanıya bilərsiniz: İsa Məsihin cismən
gəldiyini iqrar edən hər ruh Allahdandır, 3 İsanı*
iqrar etməyən hər ruhsa Allahdan deyil. Bu,
«Məsih əleyhdarı»nın ruhudur ki, bu ruhun
gələcəyini eşitmisiniz və indi də artıq dünyadadır.
4 Sizsə, ey övladlar, Allahdansınız və yalançı

* **3:23** Yəh. 13:34; 15:12,17
* **4:3** İsanı – bəzi əlyazmalarda İsa Məsihin cismən gəldiyini.

peyğəmbərlərə qalib gəlmisiniz. Çünki sizdə
olan Ruh dünyada olandan üstündür. 5 Onlar
dünyadandır, buna görə də dünyəvi mövqedən
danışırlar və dünya onlara qulaq asır. 6 Bizsə
Allahdanıq. Allahı tanıyan bizə qulaq asır,
Allahdan olmayansa bizə qulaq asmır. Həqiqət
ruhunu və aldatma ruhunu bundan tanıyırıq.

### *Allah məhəbbətdir*

7 Ey sevimlilər, bir-birimizi sevək, çünki
məhəbbət Allahdandır. Sevən hər kəs də Allahdan
doğulub və Allahı tanıyır. 8 Sevməyən kəs Allahı
tanımır, çünki Allah məhəbbətdir. 9 Allahın bizə
olan məhəbbəti belə zahir oldu: Allah Öz vahid
Oğlunu dünyaya göndərdi ki, biz Onun vasitəsilə
yaşayaq. 10 Məhəbbət bizim Allahı sevməyimizlə
bağlı deyil, amma bundan ibarətdir: O bizi sevdi
və Öz Oğlunu bizim günahlarımıza görə kəffarə
qurbanı olaraq göndərdi. 11 Ey sevimlilər, Allah
bizi bu cür sevdiyi üçün biz də gərək bir-birimizi
sevək. 12 *Allahı heç kim heç zaman görməyib.
Əgər biz bir-birimizi sevsək, Allah bizdə qalır və
Onun məhəbbəti bizdə kamil olur.
13 Bizim Onda, Onun da bizdə qaldığını bundan
bilirik ki, O bizə Öz Ruhundan verib. 14 Biz görüb
şahidlik edirik ki, Ata Oğlunu dünyanın Xilaskarı
olaraq göndərdi. 15 Kim iqrar edir ki, İsa Allahın
Oğludur, Allah onda, o da Allahda qalır. 16 Biz Al-
lahın bizə olan məhəbbətini anlayıb buna inandıq.
Allah məhəbbətdir. Kim məhəbbətdə qalarsa,
Allahda qalar, Allah da onda qalar. 17 Məhəbbət

* **4:12** Yəh. 1:18

bizdə ona görə kamil oldu ki, qiyamət günündə†
cəsarətimiz olsun. Çünki Məsih necədirsə, biz də
bu dünyada eləyik. 18 Məhəbbətdə qorxu yoxdur,
əksinə, kamil məhəbbət qorxunu qovar. Çünki
qorxu cəzaya aiddir, qorxan insan məhəbbətdə
kamil deyil.

19 Biz sevirik,‡ çünki öncə O bizi sevdi. 20 Kim
«mən Allahı sevirəm» deyir, amma öz qardaşına
nifrət edirsə, yalançıdır. Axı gördüyü qardaşını
sevməyən görmədiyi Allahı sevə bilməz. 21 Bizim
Ondan aldığımız əmr budur ki, Allahı sevən gərək
öz qardaşını da sevsin.

# 5

*Allahın Oğluna iman*

1 İsanın Məsih olduğuna inanan hər kəs Allahdan
doğulub. Doğanı sevən ondan doğulanı da sevir.
2 Biz Allahın övladlarını sevdiyimizi bundan an-
layırıq ki, Allahı sevib Onun əmrlərinə əməl edirik.
3 *Çünki Allah məhəbbəti Onun əmrlərinə riayət
etməyimizi tələb edir. Onun əmrləri isə ağır deyil.
4 Çünki Allahdan doğulan hər kəs dünyaya qalib
gəlir. Bizə dünya üzərində zəfər qazandıran öz
imanımızdır. 5 Dünyaya qalib gələn kimdir? Əlbəttə
ki, İsanın Allahın Oğlu olmasına inanan!

6 Su və qanla gələn Şəxs həmin İsa Məsihdir. O
yalnız su ilə deyil, su və qanla gəldi. Buna şəhadət
edən Ruhdur, çünki Ruh həqiqətdir. 7 Bəli, üç şahid

† **4:17** Qiyamət günündə – hərfi tərcümədə mühakimə günündə.
‡ **4:19** Sevirik – bəzi əlyazmalarda Onu sevirik. * **5:3** Yəh. 14:15

var: 8 Ruh, su və qan.* Bunların üçü də bir-
birinə uyğun gəlir. 9 Biz insanların şəhadətini qəbul
edirik, amma Allahın şəhadəti bundan üstündür.
Çünki bu, Allahın şəhadətidir; O Öz Oğlu barədə
şəhadət edib. 10 Allahın Oğluna iman edən kəs öz
daxilində bu şəhadətə malikdir. Amma Allaha
inanmayan Onu yalançı yerinə qoyub. Çünki Al-
lahın Öz Oğlu barədə verdiyi şəhadətə inanmayıb.
11 *Bu şəhadət ondan ibarətdir ki, Allah bizə əbədi
həyat verib və bu həyat Onun Oğlundadır. 12 Oğula
malik olan şəxsin həyatı var, Allahın Oğluna malik
olmayan şəxsin isə həyatı yoxdur.

### *Əbədi həyat*

13 Bunları sizə – Allahın Oğlunun adına iman
edənlərə yazdım ki, əbədi həyata malik olduğunuzu
biləsiniz.† 14 Biz Onun hüzurunda ona görə
cəsarətlə danışa bilirik ki, Onun iradəsinə uyğun
nəsə dilədikdə O bizi eşidir. 15 Bilirik ki, nə
diləyiriksə, O bizi eşidir; beləcə də bilirik ki, Ondan
dilədiklərimizi alırıq.

16 Əgər bir kəs qardaşının ölümə aparmayan
günah etdiyini görsə, qoy Allahdan onun sağ qal-
masını diləsin və beləcə ona – ölümə aparmayan
günah edən kəsə həyat versin. Ölümə aparan
günah da var. Demirəm ki, bu barədə Allahdan

* **5:8** Bəli, üç şahid var: 8 Ruh, su və qan – yunan dilində ilk nəşr olunan mətndə və bəzi tərcümələrdə Bəli, göydə üç şahid var: Ata, Kəlam və Müqəddəs Ruh; bunların üçü də birdir. 8 Yerdə də üç şahid var: Ruh, su və qan. * **5:11** Yəh. 3:36 † **5:13** Biləsiniz – bəzi əlyazmalarda biləsiniz və Allahın Oğlunun adına inanasınız.

istəsin. 17 Hər cür haqsızlıq günahdır, amma ölümə
aparmayan günah da var.

18 Bilirik ki, Allahdan doğulan hər kəs günahını
davam etdirməz. Əksinə, Allahdan doğulan Oğul
onu qoruyur və şər olan ona toxuna bilmir.
19 Bilirik ki, biz Allahdanıq, amma bütün dünya şər
olanın hakimiyyəti altındadır. 20 Bunu da bilirik ki,
Allahın Oğlu gəlib bizə Haqq Olanı tanımaq üçün
dərrakə verdi. Biz də Haqq Olanda, Onun Oğlu İsa
Məsihdəyik. Həqiqi Allah və əbədi həyat Odur.

21 Ey övladlar, özünüzü bütlərdən qoruyun!

# Azərbaycan dilində Müqəddəs Kitab
## The Holy Bible in the Azerbaijani language, also known as the Azeri language, of Azerbaijan, Iran, Iraq, Syria, and Turkey

Copyright © 2008 Müqəddəs Kitab Sirkəti

Language: Azeri (Azerbaijani, South)

Translation by: Institute for Bible Translation

Contributor: Bible Society of Azerbaijan

This translation text is made available to you under the terms of the Creative Commons License: Attribution-Noncommercial-No Derivative Works. (http:// creativecommons.org/ licenses/ by-nc-nd/ 3.0/) In addition, you have permission to port the text to different file formats, as long as you do not change any of the text or punctuation of the Bible.
You may share, copy, distribute, transmit, and extract portions or quotations from this work, provided that you include the above copyright information:
You must give Attribution to the work.
You do not sell this work for a profit.
You do not make any derivative works that change any of the actual words or punctuation of the Scriptures.
Permissions beyond the scope of this license may be available if you contact us with your request.
This translation is made available to you under the terms of the Creative Commons Attribution-Noncommercial-No Derivatives license 4.0.
You may share and redistribute this Bible translation or extracts from it in any format, provided that:
You include the above copyright and source information.
You do not sell this work for a profit.
You do not change any of the words or punctuation of the Scriptures.
Pictures included with Scriptures and other documents on this site are licensed just for use with those Scriptures and documents. For other uses, please contact the respective copyright owners.

2018-11-09

---

PDF generated using Haiola and XeLaTeX on 11 Nov 2022 from source files dated 9 Oct 2020
5d1dd449-0589-5c75-ab0e-6b96786f2985